konsepsiyası əslində orta əsrlər Avropa fəlsəfəsinin real konsepsiyası ilə demək olar ki, eynidir.

Qeyri-real anlayışını fenomenoloji fəlsəfə kontekstində şərh edən Edmund Husserlin tələbəsi, Fəlsəfə və Fenomenoloji Tədqiqatların yaradıcısı və redaktoru, yəhudi amerikalı filosof Marvin Farberin (1901-1980) fikrincə ontologiya anlayışı. Təkcə sənətdə deyil, bütövlükdə dünyada qeyri-real anlayışı 1943-cü ildən yaranıb. Farber ilk dəfə 1943-cü ildə çap olunan və 2006-cı ildə yenidən nəşr olunan bu əsərində qeyri-real realizm anlayışını elə təqdim edir ki, hisslərlə qəbul edilən obyektivlik yalnız təzahür, fenomendir, məlum “reallıqdan” “daha real” olan qeyri-reallıq var. İrreallıq insan tərəfindən kəşf edilməmişdən əvvəl də "reallıqda" mövcud olmuşdur və bu qeyri-reallıq insan tərəfindən kəşf edildikdən sonra gerçəkliyin mənasına çevrilmişdir. Marvin Farber qeyri-real anlayışını əsasən ontoloji kontekstdə nəzərdən keçirirdisə, Orteqa-i-Qasset xəttinin davamı, estetik təfəkkür anlayışına qayıdış ilk növbədə alman fəlsəfəsində, ilk növbədə görkəmli alman filosofu Nikolayın simasında baş vermişdir. Hartmann (1882-1950) . Ömrünün sonlarına yaxın yaradıcılığının böyük hissəsini ontologiyanın təhlilinə həsr etmiş və fəlsəfənin digər problemlərini təhlil edən Hartman. Daha gənc Farberdən təsirlənərək, qeyri-real anlayışını ontoloji tədqiqatlarına daxil etdi və estetik məsələləri də ontoloji baxımdan təhlil etdi. Qeyri-real anlayışı bu təhlilin əsas vasitəsi idi.

Hartmanın estetik tədqiqatları nəticəsində 1953-cü ildə ölümündən sonra alman dilində, daha sonra isə bir çox başqa dillərdə, o cümlədən rus dilində orijinal “Etika” monoqrafiyası nəşr olundu. Bu əsər insan estetik təfəkkürünün inkişafı tarixində ən görkəmli nailiyyətlərdən biri kimi mühüm əhəmiyyət kəsb edir.

## SOSIAL-IQTISADI INKIŞAFDA RƏQABƏTLİ İNSAN KAPİTALI

*Mustafayev Kənan Sərvər oğlu*
*Elmi Rəhbər: Səfərova Təranə Allahverdi qızı*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amili**,** əhalinin yüksək rifahı və layiqli həyat səviyyəs**i** dayanır. Yeni dövrdə isə dövlət müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, cəmiyyətin yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməyi hədəfləyir. Azərbaycan dünyada artan rəqabətə uyğun insan kapitalı formalaşdırmaqla rifaha nail olmağı prioritet kimi müəyyən edib. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir.

Bununla yanaşı, idarəetmə sahəsində daim təkmilləşmə və effektivlilik əsas götürülərək insan kapitalının, kadr potensialının formalaşması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə də yeni layihələr həyata keçirməkdədir. Məsələn, "Yüksəliş" müsabiqəsi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri, yeni dövrə uyğun bilik və vərdişləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr bankının yaradılmasını təmin etmək məqsədilə atılmış mühüm addımdır. Bununla yanaşı, İqtisadiyyat Nazirliyində yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialdan səmərəli istifadə, peşəkarlıq səviyyəsinin artırılması, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsində "Uğur yolu" karyera inkişaf proqramının həyata keçirilməsi xüsusi önəm kəsb edir.

İnsan kapitalının həlledici rolunu nəzərə alaraq, innovasiyaların davamlı inkişafı fonunda bu sahəyə diqqət getdikcə artacaq. Bu məqsədlə şərait və mühit daha da əlverişli hala gətiriləcək. Təhsilin keyfiyyətinin yüksəldilməsi, innovasiyaları təşviq edən münbit şəraitin yaradılması, ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulması, dövlətin vahid rəqəmsal platformasının yaradılması kimi tədbirlər də buna xidmət edəcək.

Hər bir ölkənin gələcəyi onun təhsil sistemindən güclü surətdə asılıdır. Əlbəttə ki, ölkədə təhsilin təşkil olunması dövlət səviyyəsində həyata keçirilir. Təhsilin pillələri olan orta məktəblər, peşə məktəbləri, ali məktəblərdə verilən hər bir səviyyə şagird və ya tələbələrin gələcək fəaliyyətlərinə bilavasitə təsir göstərir. Əlbəttə ki, səviyyəsindən asılı olmayaraq hər bir təhsil növü müəyyən proqram üzrə aparılır. Tədris prosesinn keyfiyyətini artırmaq üçün elm və texnologiyaların nailiyyətləri təhsil sisteminə də tətbiq olunur. 2001-ci ildən başlayaraq təhsildə keyfiyyət probleminin önə çəkilməsi, təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər təhsilin forma və məzmunca təkmilləşdirilməsinə, keyfiyyətcə yaxşılaşdırılmasına, bu sahədə yeni ideyaların, qabaqcıl təcrübənin öyrənilməsinə geniş imkanlar açmışdır. Keyfiyyət anlayışı iki aspekti özündə cəmləşdirir: dövlət standartlarına uyğunluq və istehlakçının tələbatının ödənilməsi. Təhsildə keyfiyyət dedikdə isə təhsilin keyfiyyətinin məzmunu, keyfiyyətin planlaşdırılması, idarə olunması, monitorinqi, qiymətləndirilməsi, keyfiyyətə nəzarət amillərinin səviyyəsi başa düşülməlidir. Təhsilin keyfiyyəti anlayışı pedoqoji prosesin ayrı-ayrı iştirakçıları tərəfindən müxtəlif şəkildə başa düşülür. Belə ki, valideynlər tərəfindən təhsilin keyfiyyəti öz uşaqlarının fərdi xüsusiyyətlərinin inkişafı, təlim səviyyəsi ilə əlaqələndirilir. Müəllim üçün təhsilin keyfiyyəti onların özlərini təmin edən tədris planı və proqramlarının, dərsliklərin, zəngin təlim materiallarının, maddi tədris bazasının olması ilə səciyyələnir. Şagirdlər üçün təhsilin keyfiyyəti məktəbdaxili iqlimin, müəllim-şagird münasibətlərinin, dərs deyən müəllimlərin onları qane 26 etməsi ilə bağlıdır. Peşə-ixtisas təhsili müəssisələri və işəgötürənlər üçün isə təhsilin keyfiyyəti məzunların əldə etdikləri bacarıq və vərdişlərlə, qazandıqları biliklərlə ölçülür. Bu baxımdan təhsilin keyfiyyətinin təmin edilməsi bütün bu amillərin fəaliyyət prosesində vəhdətdə nəzərə alınması ilə bilavasitə bağlı olmalıdır. Təhsilin keyfiyyəti

sosial kateqoriya kimi cəmiyyətdə təhsil prosesinin vəziyyətini və səmərəliliyini göstərir, habelə şəxsiyyətin vətəndaşlıq, məişət və peşə səriştəliliyinin cəmiyyətin (müxtəlif sosial qrupların) tələblərinə uyğunluğunu nümayiş etdirir. O, təhsil müəssisəsinin fəaliyyətini xarakterizə edən müxtəlif aspektlərin (təhsilin məzmunu, təlimin forma və metodları, kadr tərkibi, tədris və maddi-texniki bazanın vəziyyəti və s. göstəricilər) məcmusu ilə müəyyən olunur, bunların vasitəsilə də təhsil alanların səriştəliliyinin inkişafını təmin edir.

Müasir innovasiyalı iqtisadiyyatın ən aktual problemlərindən biri biliyin rolunun artması və iqtisadi artımın, tərəqqinin təmin edilməsində onun ən mühüm əhəmiyyətli resurslardan birinə, yəni intellektual kapitala çevrilməsidir. Yeni bilklər onu istfadə edən müəssisənin bazar dəyərini və rəqabətqabiliyyətliliyini yüksəltdiyi üçün bu biliyə müəssiəsənin strateji əhəmiyyətli ehtiyatlarından biri kimi baxmaq olar. Ona görə də son illər əmtəə və xidmətlərin istehsalında intellektual kapitalın rolu getdikcə artmaqdadır. 21-ci əsrin əvvəllərində yüksəktexnolociyalı amerika şirkətlərində intellektual kapitalın dəyəri kapitalın ümumi dəyərinin 80%-ə qədərini təşkil edirdi. Əgər cəmiyyətin sənaye (industrial) inkişafı mərhələsində məhsulların istehsalında hada çox xammal, materiallar, enerji resursları, iş qüvvəsi tələb olunurdusa, artıq postindustrial və informasiya cəmiyyəti fiziki resurslardan çox, intellektual resursların, yəni biliyin istifadəsinə ehtiyac yaratmışdır ki, bu da yaradılan yeni məhsul növlərində, yeni texnologiyalarda, yeni vərdişlər, bacarıqla, istehlakçılarla yeni münasibətləri sistemində özünü təzahür etdirir, çünki müasir iqtisadiyyatda bilik inkişafın lokomativi rolunu oynayır. İntellektual kapital, xüsusi biliklər və kommunikasiya təkcə yaradılan yeni dəyərin amili kimi çıxış etmir, həm də müəssisənin rəqabətqabiliyyətliliyinin mühüm hərtləndirici amili rolunda çıxış edir.

***Ədəbiyyat:***

1.İsmayılov V.B. Strateji menecment. Bakı, 2018.
2.Əliquliyev R.M. İqtisadi proseslərdə informasiya texnologiyaları. Bakı 2019.

## İKT VASİTƏSİLƏ TƏHSİLİN  KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİ

*Nəcəfova Günel Alim* ***qızı***
*Mingəçevir Dövlət Universiteti*

Vaxt bir orbit üzrə  gələcəyə doğru hərəkət edir. Uşaq kimi doğulub ahıl bir şəxs kimi həyatımızı tamamlayırıq. Zaman axınında bizi nələrin gözlədiyini təbii ki, bilmirik. Yüz illər boyunca insanlar öz həyatlarını standartlara uyğunlaşdırmağa çalışıblar. İnsanlar daim gələcəyə böyük maraq göstəriblər. Hadisələrin tez-tez dəyişməsi, problemlərin yaranması sürətli inkişaf əslində dünyanın nə qədər sirli bir məkan olmasından xəbər verir.

Həyatlarını davam etdirmək, maddi tələbatların ödənilməsi kimi öhdəliklər insanların üzərinə düşən çətin vəzifələrdir. İnsanlar həyatlarını yaxşılaşdırmaq üçün müxtəlif resurslardan, alətlərdən istifadə edirlər. Alətlərin hazırlanması isə yüksək bilik tələb edən prosesdir. Təkmilləşən alətlər həyatımıza texnologiya adı ilə daxil